Yadıma sən düşürsən

***

Ən çox saçlarını xoşlayıram mən,
Tökülə çiyninə şəlalə kimi.
Ürəyim yanınca içəm ürəkdən
Tellər axınını piyalə kimi.

Elə bil mənimlə bəhs eləyirsən,
Yığıb saçlarını sancaqlayırsan.
Şəlalə telləri həbs eləyirsən,
Onları dustaqda çox saxlayırsan.

Yalvarış gətirir bir mərhəmətə
Dünyanın ən zalım hökmdarını.
Mən özüm gəlmişəm axı, minnətə,
Aç, burax günahsız dustaqlarını.

1979

***

Sıx buludlar saçaq-saçaq,
Yağış səni isladacaq,
Gəlmə, gülüm, gəlmə, gülüm,
Bu yandan da külək əsdi,
Dilə tutma məni, bəsdi,
Gəlmə, gülüm, gəlmə, gülüm.

Düzdür, sənsiz darıxıram,
Yollarına hey baxıram,
Ancaq gəlmə, islanarsan.

Sənə gəlmə deyə-deyə
Dikilibdir gözüm göyə,
Ah, bu yağış, ah, bu leysan!

Əgər gəlsən, deyirəm mən,
Bu yağışdan, bu küləkdən
Qoruyarmı səni çətir?
Dilim deyir: gəlmə, gəlmə,
Ürəyimi belə bilmə,
O deyir: gəl, sevinc gətir!

Yox, yox, gəlmə, qadan alım,
Başıaçıq, ayaqyalın
Mən yanına özüm gəllərm.
Özüm gəllərm, əssin külək.
Yağış yağsın sellənərək.
Lap daşqına düşsün aləm.

Gəlmə, gəlmə... Elə bu an
Kimsə girir astanadan,
Paltarı su, saçları su,
Tanıyıram gələni mən.
Bir cüt odlu gözlərindən
Görürəm kim olduğunu.
– Qadan alım, niyə gəldin?
Həsrətimi nədən bildin?
Deməli sən belələnmiş?!
Hər tərəf su, sən bir ada,
Necə gəldin bu havada?
Sən məndən də dəlisənmiş!

1979

***

Sevgidən danışan şeirlərimi
Siz əsla yazmayın mənim adıma.
Yox, yox, sevməmişəm mən sizin kimi,
Gizli görüşlər də gəlmir yadıma.

Məhəbbət yaşıma girdiyim ildə
Eşqin nəğməsini mərmilər dedi.
Məhəbbət təşnəsi dodaq da, dil də
"El-oba yasdadır, kim sevər?!" dedi.

O qız da...
O qız da qaldı uzaqda,
Bəlkə ölən eşqə yas saxlayır o?
Kim bilir, bəlkə də məhəbbət haqda
Yazılmış bir roman varaqlayır o?

Oxuyur özgənin macərasını,
Gizli görüşləri, vüsal dəmini.
Kitabla unudur könül yasını,
Unudur ömrünün dərdi-qəmini?!

Mən də özgələrin məhəbbətinə,
Bəxtiyar eşqinə şeir yazıram.
Oxuyan "bəxtəveri" söyləyir mənə,
Qəlbimi yandırır, yaxır öz yaram.

Bir şeir kitabım qəflətən əgər,
O qızın əlinə keçərsə bir gün,
Yəqin o da mənə "bəxtəvər" deyər
Sevgidən danışan şeirlər üçün.

Yox, yox, sevməmişəm mən sizin kimi,
Gizli görüşlər də gəlmir yadıma.
Sevgidən danışan şerlərimi
Siz əsla yazmayın mənim adıma.

Ordakı hər sözə siz fikir verin,
Hər xətdə bir tale, bir ünvan gəzin,
Məhəbbət nəql edən o şeirlərin
Bədbini mənimdir,
nikbini sizin.

***

Mənə yaşamağı öyrət, əzizim,
Öyrət, çətinliyə sinə gərməyi,
Öyrət dar ayaqda əsməsin dizim,
Öyrət düz görməyi, sərrast görməyi.

Sən öyrədən kimi qarşılaram mən
Gələn sevinci də, əziyyəti də.
Öyrət, mehribanım, sən öyrətmisən
Mənə ilk eşqi də, ilk nifrəti də!

QU QUŞUNUN NƏĞMƏSİ

Deyirsən: "Məhəbbət şerlərinin
Hamısı qısadır – bir bənd, iki bənd"
Deyirsən: "Deməli, şikəstdir sənin
Məhəbbət yolunda mindiyin səmənd".

Əzizim, doğrudur, məhəbbətimdən
Uzun söz açdığım olmayıb hələ.
Sevgi söhbətində çox xəsisəm mən,
Neynim, təbiətim belədir, belə...

Dostum, bu məzəmmət, bu giley nədir?
Qoy mən söz açmayım sevgidən daha.
Qu quşu nəğməni bir ağız deyir,
Ömründə bir ağız...
Amma nəğmə ha!..

VURĞUN GÖYLƏR

Mənə elə gəlir vurulub göylər
Yerin cəlalına – bağçaya, bağa,
Onunçün əzəldən bu günə qədər
Səma heyran-heyran baxır torpağa.

Gecələr Ay ilə, ulduzlar ilə,
Gündüzlər Günəşlə baxır göy yerə.
Yayda atəş ilə, qışda qar ilə
O salam göndərir barlı çöllərə.

Məhəbbət belədir... Qırpmır gözünü,
Qırpsa eşq atəşi sönər elə bil.
O lal baxışlarla deyir sözünü,
Məhəbbət belədir, sevgi belədir.

Kəsəri olarmı, özün söylə sən.
Ömürlük saxlasan qılıncı qında?!
Gəl nöqsan axtarma sənə zillənən
Gözümün əbədi açıqlığında.

***

Yox, yox, az olmayıb çətin anlarım...
Dərdim də, qəmim də az olmayıbdır.
Bəzən ürək ağrım, həyəcanlarım
Bir aya, bir ilə azalmayıbdır.

Gözüm təsəlliyçün axtarıb səni,
Səni haraylayıb dilim, dodağım.
Bütün aləm bilib bu vaqeəni,
Bir sənə çatmayıb sənsiz olmağım.

Uzaqda olmusan, söylə bəlkə də?
Arada çaylarmı, dağlarmı durub?
Yoxsa sən qalmısan qürbət ölkədə,
Gələ bilməmisən,
Səni yol yorub?

Yox, belə deyildir:
Aramızda yol
Bir iynə boyundan uzun olmayıb.
Hər an sən üzümü görsən də bol-bol,
Qəlbimi görməyə gözün olmayıb.

Baxırsan, bir ağac kökü torpaqda,
Özü ayaq üstə, başı göylərdə:
Üstündə tapılar yaşıl yarpaq da,
Qəfildən quruyur durduğu yerdə.

Yanından saymazca keçib gedirlər,
Ağacın dərdini duymurlar nədən?
Bir ovuc, bir qətrə su ilə məgər
Yarpaq açmazdımı ağac yenidən?

Necə bənzəyirəm həmin ağaca!
Başımdan keçəni xəbər alırsan:
Sənsizlik adlanan bir ehtiyaca
Mən boyun əymişəm səndən də pünhan.

Bəzən açılmayır dil di, dodaq da,
Onlar qıfıl olur kədərə, dərdə.
...Görürsən bir ağac kökü torpaqda
Qəfildən quruyur durduğu yerdə.

İSTƏRƏM

Mən sənin eşqinin asimanında
Aya, ulduzlara çatmaq istərəm.
Min-min səadəti boyunbağıtək
Mən sənin boynuna asmaq istərəm.

Bir sən, bir mən olum, bir uçuq kaha –
Heç nə istəmirəm taledən daha.
Bütün kədərini alıb çox baha,
Sevinci havayı satmaq istərəm.

Yaşayım yüz il də, milyon da, min də –
Həyatım bitəcək həmin o gündə,
Sənin gözlərinin dərinliyində
Boğulmaq istərəm, batmaq istərəm.

***

Bir gün xatirimə düşdün təzədən
Qəfildən şaxıyan bir şimşək kimi.
Sanırdım anmaram səni bir də mən
Qoxlanıb atılmış bir çiçək kimi.

Səni xatırladım...
İstərdim fəqət
Heç vaxt düşməyəsən yadıma bir də.
Tamam unudula köhnə məhəbbət,
Tamam unudula xatirələr də.

Düşdün xatirimə...
Mən surətini
İstədim gözümdən qovam uzağa.
Xəyalın göstərdi öz qüdrətini,
İradəm çatmadı səndən qaçmağa.

Durdun göz önündə məğrur, gülümsər,
İncə nəvazişli, mehriban, təmiz,
Həyat təbəssümlü, gözəl...
Bir qədər
Özündən tez çıxan –
Həm də səbəbsiz...
Bircə yol baxmaqla dərdi dağıdan
Gözlərin yalandan, riyadan uzaq.
Düşdün xatirimə,
Lap ilk çağından
Sevincimə şərik, qəmimə ortaq.

Sən bu xislətinlə,
Bu aləminlə
Düşdün xatirimə, düşdün qəfildən.
Qəlbimin bugünkü dərdi, qəmilə
Cidala başladın adətinlə sən.

Yox, səni unutmaq əmri-mahaldı,
Yuvan sinəmdəki sevən ürəkmiş.
Yadıma düşməyin dərdimi aldı,
Eşqin, nəvazişin mənə gərəkmiş.

Yox, səni unutmaq
Coşqun selləri
Tərsinə üzməkdən daha çətinmiş.
Göyərçin qanadı – bir cüt əllərin
Mənim pərvaz edən səadətimmiş...

YUXUDA GÖRDÜM Kİ...

Yuxuda gördüm ki, sevmirsən məni,
Bütün ümidlərim puçdur, nahaqdır,
Taleyim söyləmir könlüm deyəni,
Əllərin, gözlərin məndən uzaqdır.

Yuxuda gördüm ki, dodaqlarında
Mənim adım deyil,
Başqa bir ad var.
Ömrümün sevdalı gənc çağlarında
Mənə dönük çıxır vəfa, etibar.

Ayıldım yuxudan...
Qaraldı gözüm.
Bürüdü qəlbimi tələşlə qorxu.
Düşdü xatırıma sənin bu sözün:
"Əzizim, tərsinə yozulur yuxu".

***

Əynindəki donun bəyaz,
Örpəyin bəyaz,
Seyr edirəm ağ çəkməni,
Ağ əlcəyini,

Elə bil ki,
Başın üstə
Təzə gələn yaz
Silkələyib
Gilənarın ağ çiçəyini.

Bu ağ libas
Camalına yaraşır necə!
Öz toyundur, oynayırsan ortalıqda son.
Qol qaldırıb asta-asta rəqs elədikcə
Sanıram ki,
Qu quşudur qarşımda süzən.

Bu ağ libas – toy paltarı
Bir gecəlikdir.
Bilirəm ki,
Sabah onu dəyişəcəksən.

Gözlərimin qarşısından
Ağ rənglər keçir:
Bir körpənin ağ bələyi.
Ağ süfrə,
Yelkən.
Sonra bəyaz bir qağayı
Sonra kəhkəşan.

Sonra şimşək,
Sonra isə quzeydəki qar.
Sonra
Bütün ömrü boyu üzüağ insan,
Sonra saçlar...
Sonra saçlar...
Gümüşü saçlar!..

İnsan qəlbi
Arzu dolu sonsuz bir aləm,
Qoy hər istək
Öz yerinə,
Vaxtına düşsün.

Bugecəki paltarının rəngi
İstərəm
Ömrün boyu
Taleyinə,
Baxtına düşsün!

PIÇILTILAR

Məndən bir az aralı
Durub bir qız, bir oğlan.
Onların pıçıltısı
Eşidilir anbaan.

Görən nə danışırlar,
Qəlblərində nə vardır?
Heç nə başa düşmürəm,
Yalnız pıçıltılardır.

Eşitdiyim qarışıq,
Rabitəsiz kəlmələr.
Onlar nədən danışır?
Düşünürəm bir qədər.

Bildim ürəklərində
Deyiləsi min söz var,
Lakin heç nə demirlər,
Elə pıçıldaşırlar.

Bütün görüş müddəti
Deyilən sözü yığsan,
Mübtədalı, xəbərli
Bir cümlə çıxmaz, inan.

Biz də belə edərdik
Görüş günlərimizdə.
Vaxtı başa vurardıq
Pıçıltılarla biz də.

Biz də öz dünyamızda
Söz-söhbətsiz yaşardıq.
Biz də heç nə deməzdik,
Elə pıçıldaşardıq...

AXŞAM QARANLIĞINDA

Qəlbimə qəm dolurdu
Axşam qaranlığında.
Sənsiz keçən hər anım
Dönüb bir il olurdu
Axşam qaranlığında.

Sanırdım günəş bir də
Çıxmayacaq üfüqdən,
Qərq olub gecələrdə
Qalacağam belə mən
Axşam qaranlığında.

Sanırdım dağ yolları
Bir də seçilməyəcək
Ömrün uzaq yolları
Bir də keçilməyəcək
Axşam qaranlığında.

Bu vaxt çıxdı qarşıma
Bir cüt qapqara ulduz.
Gözləyirdim onları
Yorğun, küskün, yuxusuz
Axşam qaranlığında.

İndi qaranlıqları
Mən sanmıram uğursuz,
Şölələnir yolumda
Bir cüt göz – qapqara göz, –
Bir cüt qapqara ulduz.

***

Deyirdim ki, bir daha
zəng etmərəm sənə mən,
Telefon nömrəni də
silmişdim dəftərimdən.
Necə oldu, bilmirəm,
hər şey yadımdan çıxdı,
Barmaqlarım yenə də
sənin nömrəni yığdı.

ETİRAF

Bilirəm səhvimi, günahlarımı,
Demirəm onları bağışla mənə.
Günahsız deyildir həyatda hamı,
Baxma töhmət dolu baxışla mənə.

Bəzən sürüşübdür ayaqlarım da
Mən əyri yolu da doğru sanmışam.
Yalan da dolaşıb dodaqlarımda,
Özüm də yalana çox inanmışam.

Bəzən gülə-gülə ağlamışam mən,
Aydın görünməmiş əsil sifətim,
Ağlaya-ağlaya gülmüşəm bəzən,
Özümə sirr olub öz təbiətim.

Bunlar əzab verir onsuz da mənə,
İti neştər olub batır gözümə,
Bilirəm səhvimi... təzədən yenə,
Sən allah, onları vurma üzümə.

***

Sən mənə lazımsan sutək, havatək,
Sən mənə lazımsan öz canım qədər,
Səni arzulayır sinəmdə ürək,
Bu böyük həsrəti duymursan məgər?

Qəmli günlərimdə lazımsan mənə,
Qovasan qəlbimin kədərini sən.
Xoşbəxt günlərimdə lazımsan yenə,
Böyük sevincimi yarı bölәsən.

Kef üçün, zövq üçün, nəşəyçün deyil,
Xəstəyə dərmantək mənə gərəksən.
Həyatın yolları tufanlıdır, bil,
Ona gərmək üçün sinə, gərəksən.

Sən ümid, təsəlli, sən şirin arzu,
Sən ömür yelkəni dumanda, çəndə!
Bir az yaxşı düşün, gülüm, doğrusu,
Sənə bunlar üçün lazımam mən də.

***

Torpaq quruyurdu, yağdı yağışlar,
Güllər üşüyürdü, günəş göründü.
Budaqlar qəmgindi, dilləndi quşlar,
Üfüq gülab rəngli dona büründü.

Yamaclar çılpaqdı, açdı lalələr,
Dəniz durğun idi, tufan oyandı,
Qaranlıq qatıydı, açıldı səhər,
Göylərin yaxası alışdı, yandı.

Sən bu təbiətin ahənginə bax,
Gəl onun əqlindən biz də dərs alaq,
Səni gözləyirəm mən nə zamandır.
Zülmətə günəştək, şaxtaya odtək,
Durğun bir aləmə gələn həyattək
Gəl mənim ömrümə, tez gəl, amandır!

***

Məhəbbət yolunda yorulmur ürək,
Göyün intəhasız dərinliyinə
Hazıram şığıyam, baş vuram yenə,
Gedəm görünməyən ulduzlaradək.

Min bir rəngə çalan qövsi-qüzehi,
Hazıram, göylərdən gətirəm sənə.
Hələ yer nəfəsi dəyməyən şehi
Gətirəm, çiləyəm sıx tellərinə.

Ən iri, ən xırda meteorları,
Yazdakı yağışı, qışdakı qarı
İstərəm səmadan gətirəm sənə!

Bahar təravətli sərin yelləri,
Hələ yaşanmamış xoşbəxt illəri
İstərəm indidən yetirəm sənə!

***

Bir qız keçir küçədən – bir gözəllik timsalı:
Necə təsvir edim mən surətini, boyunu?!
Hamını heyran etmiş ala gözü, camalı
Hamı ayaq saxlayır, dönüb seyr edir onu.

Saç-saqqalı ağarmış, dünya görmüş bir qoca
Dayanır bir anlığa, çeşməyini düzəldir.
O da cavanlar kimi, gözəl qıza baxınca
Köks ötürüb dərindən, deyir: "Bəli, gözəldir!"

Onun ömrü keçibdir, onun saçları qartək,
Bu gün-sabah bəlkə də karvanını çəkəcək,
Bəs o gözəl afətə həsrətlə niyə baxdı?

Gözəllikdən doymayır, doya bilməyir insan,
O pirani qoca da, ey dost, mənə gəl inan,
Gözəl qıza baxmadı, yox, gözəlliyə baxdı!

***

Kiçik təkanla da şütüyür qayıq,
Mavi bir səhraya baş alırıq biz,
Elə bil səmanın qucağındayıq,
Uzaqda birləşir üfüqlə dəniz.

Mən avar çəkirəm...
Boz darı kimi
Arabir saçına səpilən sular
Rəngdən-rəngə düşür mirvari kimi,
Yanır, şölələnir, parlayır par-par.

Mən avar çəkirəm...
Sənin gözündə
Səadət görürəm bu dəniz qədər.
Fikrimdə deyirəm bu dəm özüm də:
Bəxtiyar varmıdır ikimiz qədər?

Mən avar çəkirəm...
Düşünmürəm heç
Qəflətən oyanar fırtına, boran,
Sən mənə desən ki, ümmanları keç,
Bu kiçik qayıqla keçərəm, inan.

Ömür dənizində sənlə qoşa
Yelkənə çevirib məhəbbətimi,
Bu kiçik qayıqda vuraram başa
Ən uzun –
Magellan səyahətini!

***

Sevgilim, tut əlimdən,
Gedək üzü küləyə,
Rahatlıq gəzmirəm mən
Gedək üzü küləyə.

Qoy göynəsin üzümüz,
Qoy yaşarsın gözümüz.
Bükülməsin dizimiz,
Gedək üzü küləyə.

Yollar daşlı-kəsəkli,
Yollar çənli-çisəkli,
Yollar qarlı-küləkli,
Gedək üzü küləyə.

Min axşamla, səhərlə
Biz üzləşək hünərlə.
Günlərlə, həftələrlə
Gedək üzü küləyə.

***

Nə qədər uzağıq bir-birimizdən,
Arada dənizlər, dağlar var indi.
Bura şaxta düşcək deyirəm ki, mən
Bəlkə də oraya yağıb qar indi.

Mənə belə gəlir...
Əslində orda
Bahar çiçəkləri açıbdır yəqin.
Çoxdan sovuşubur boran da, qar da,
Artıq üşüməyir əlcəksiz əlin.

Bunları bilirəm,
Fəqət neyləyim,
Qəlbim sənin üçün çox narahatdır.
İstəsən təskinlik tapsın ürəyim
Bir yaz çiçəyini tez ona çatdır.

***

Yenidən enməkçin öz yuvasına,
Qartal yüksəklərə qalxar, deyirlər.
Səyyah vurulmaqçün el-obasına,
Ona uzaqlardan baxar, deyirlər.

Hüsnünə yenidən vurulmaq üçün
Mən də uzaqlara getmişəm bu gün.

***

Xan çinarın gövdəsini
Kimsə qazıb bıçaqla,
İki adın baş hərfini
Ora yazıb bıçaqla.

Mən bilmirəm, ayrılıbmı,
Qovuşubmu yar yara?
Xan çinarda durur fəqət
Həmin yazı – o yara.

Ey çinara bıçaq çəkən,
Tanımıram mən səni.
Ancaq adam öz eşqiyçün
Yaralamaz özgəni!..

SEVİRƏM SƏNİ

Qaldırdım dəstəyi,
Yığdım nömrəni,
Gözüm baxmasa da o gözlərinə,
İkicə söz dedim:
– Sevirəm səni!
Dəstəyi yenə də qoydum yerinə.

Telefon zəng çaldı,
Çağırdın məni,
Qəribə vurğuyla döyündü ürək.
İkicə söz dedin:
– Sevirəm səni!
İkicə söz deyib asıldı dəstək.

Yüz il də çatmayam vüsalına mən,
Yüz il də əlinə dəyməsin əlim.
Bu iki kəlməni sənin dilindən
Eşidim,
Sonrasa...
Qoy gəlsin ölüm!

SƏNİNKİDİR

Nə çox pəncərə var şəhərimizdə,
Ən çox işıqlısı...
O sənindir!
Gör neçə qağayı üzür dənizdə,
Ən ağı-bəyazı...
O sənindir!

Nəzər sal xurmayı, sarı saçlara,
Ən tündü, qarası...
O sənindir!
Qəlbimi bəzəyir neçə min yara,
Ən dərin yarası...
O sənindir!

Mənim borc alınmış bir həyatım var,
Əmanət bir həyat...
O sənindir!
Mənim şair kimi ülvi adım var,
Ləkəsiz, təmiz ad...
O sənindir!

CÜLYETTA

Səni mənim qədər kimsə anlamaz,
Kimsə duya bilməz səni mənimtək,
Sən ölmək istədin dünyada bir az,
Beş saat...
Bir saat...
Bir qədər ölmək!

Sonra yenə qalxıb soyuq məzardan
Duymaq məhəbbətin birin dadını.
Sənə söyləyərdi hamı o zaman
Cavan Romeonun gözəl qadını.

Vəssalam.
Yaxşıdır bəlkə bu ölüm –
Yenə dirilirsən, ömr cləyirsən.
Sevgidə,
Gülyetta,
A mənim gülüm,
Belə bir oyunu istəmirəm mən.

Əgər baş tutsaydı bu oyun, düzü,
Min ləkə gələrdi saf məhəbbətə.
Nə sən, nə sevdiyin Romeo özü
Qovuşa bilməzdi əbədiyyətə.

Uşaq oyuncağı deyil məhəbbət,
Onun əzabı da, nəşəsi də var,
O həqiqət sevir, yalnız həqiqət –
Həqiqi bir həyat!
Həqiqi məzar!

***

(*Zarafatyana*)

"İL" uçur sürət ilə,
Saatda səkkiz yüz min!..
Bəs bu yollar görəsən
Neçin tükənmir, neçin?

Düşüb mindim "TU"ya mən,
Mənzil indi yarıdır.
Təyyarədən bərk uçan
Qəlbin qanadlarıdır.

Qınamıram, doğrusu,
"İL"i, "TU"nu mən bu dəm,
Onlar nə bilsin axı,
Mən yanına gəlirəm?!

Görən "İL"in qanadı
Birləşərsə "TU" ilə,
Məni vaxtından qabaq
Çatdırarmı mənzilə?

***

Mən sənin yanına qışda gəlirdim,
Çiçək axtarırdım... Gəzdim hər yanı,
Hər tərəf bəyaz qar... Gül-çiçək hanı,
Tapıb bir dibçəkdən axır ki, dərdim...

Sonra söylədim ki, baharda sənə
Bir dəstə bağlaram yaz güllərindən,
Budur, yola salıb qarlı qışı mən
Sənin görüşünə gəlmişəm yenə.

Dəstə bağlamadım... Nəyə gərəkdir,
Bax, odur, nərgizlə doludur ləklər,
Lalənin ətrini yayır küləklər,
Yasəmən, qızılgül ləçək-ləçəkdir.

Əzizim, onları qoparmaq olmaz,
Güllərə çöldə bax, dağ döşündə bax,
Onlardan mən soraq gətirdim ancaq,
Bir əlimdə bahar, bir əlimdə yaz!

***

Qəlbimtək tutqundur payız səması,
Axır gözlərimdən yaş gilə-gilə,
Uzaqda oxunur gürcü havası:
"Hardasan, suliko, hardasan, söylə!"

Sanki mən özüməm gəzib axtaran
Qəlbimdə intizar, gözümdə həsrət.
Gəzirəm, üzümə döyür yel, tufan.
Nədir axtardığım – bilmirəm fəqət.

***

Dənizdə Ay çimirdi
Yanaqları gümüşü.
Toxunurdu üzünə
Ləpələrin gülüşü.

Dənizdə ay çimirdi
Dövrəsi ulduz-ulduz.
Onu seyr eləyirdi
Yer heyran, göy yuxusuz.

Sən də gəldin sahilə,
Paltarını soyundun,
Gah nurda, gah da suda
Yuyunduqca yuyundun.

Ay xəcalət çəkdimi
Hüsnünü görən kimi?
O çəkildi dənizdən
Sən suya girən kimi.

Yığıb ulduzlarını
Ərşə qalxdı Ay yenə...
Uzaqdan xoşdu baxmaq
Gözəllərin hüsnünə!

***

Gözləyirsən onu könlündə ümid,
Gözlərin yol çəkir həsrətlə yenə,
Sanki alnında yazılmış kədərin,
De, umid varmı onun gəlməyinə?

Bir zaman mən də durub yollarda
Gözləyirdim belə həsrətlə səni.
Bəlkə adət belədir: sevməyirik
Bizi illərlə durub gözləyəni...

Odessa

***

Sən dedin: – Ay gözəldi!
Qəmər xoşuna gəldi...
Mən dedim: – Ay da gözəl,
Sıx bulud da, sevgilim!

Sən dedin: – Nəğmə xoşdur,
Sükut göy kimi boşdur.
Mən dedim: – Nəğmə də xoş,
Lal sükut da, sevgilim!

Sən də doğru söylədin,
Mən də düz dedim, fəqət,
Hər qəlbdə başqa cürə
Dilə gəldi məhəbbət.

***

Sevirdim xurmayı hörüklərini,
Deyirdim gəlməsin bir tel zavala.
Sinənə atardın bəzən birini,
Birini salardın çiynindən dala.

Sonra sən onları kəsdirdin...
Niyə?
Bəzəmək istədin yoxsa hüsnünü?
Sandım ki, qayçını sən gözəlliyə,
Lap hüsnün özünə vurdun o günü!

Bu gün təsadüfən rast gəldim sənə,
Örtmüşdü üzünü qısa saçların.
Elə bil əvvəlki gözəlliyinə
Hüsnü calanmışdı bir ilk baharın.

Nə uzun hörüklər, nə qısa saçlar
Gözəllik deyildir!
Yoxmuş xəbərim...
Ölçməkdə, biçməkdə bircə günahkar
Mənim gözlərimmiş,
vurğun gözlərim.

***

Telefon budkasının döyülür pəncərəsi,
Əsəbi bir qadının gəlir qəzəbli səsi:
– Qurtardı üç dəqiqə...
Siz də qurtarın görək,
Evə zəng vuram gərək!

Mənim hələ nə qədər deyiləsi sözüm var,
Məhəbbətdən yaranmış saf kəlmələr, duyğular.
İstəyirəm deyəm ki...
Şüşə döyülür yenə,

Günahkartək baxıram xanımın gözlərinə.
Aralayıb qapını deyirəm:
– Odur baxın,
O budkadan danışın...

Həm xoşdur, həm də yaxın.
– Xeyr, növbəm buradır!
Özünüz gedin ora!
Siz allah, bir baxınız indiki cavanlara!..

Xanım deyinib gedir,
Danışıram yenə mən.
Elə bil səsin deyil,
Məftillərin içindən
Axıb ilıq nəfəsin nəfəsimə qarışır,
Danışan mən deyiləm, yox, ürəyim danışır.

Budkanın pəncərəsi döyülür yenə,
Bir qız:
– Üç dəqiqə qurtardı! – deyib gülür qayğısız.
Bir dəstəyə baxıram, bir də qıza...
Bu zaman
O, fikrimi deyəsən anlayır baxışımdan.
– Yox, kəsməyin, danışın, yox, danışın, kəsməyin.
Mən başqa telefondan...
Danışın, tələsməyin! –
Deyə çevrilib gedir,
Qalıram budkada tək...
Yaşasın duyan ürək!
Yaşasın sevən ürək!

***

Elə bildim bahar gəldi,
Sellər coşdu, sular gəldi,
Yaz müjdəli qaranquşlar
Uçdu qatar-qatar gəldi
Küçəmizdən keçəndə sən.

Gur işıqlar şöləndi,
Hər tərəfə nur ələndi.
Ay da, gün də, ulduzlar da
Elə bildim yerə endi
Küçəmizdən keçəndə sən.

Keçdi bulud, yatdı külək,
Qönçəsini açdı çiçək.
Neçə təzə nəğmə qoşdu
İnsan kimi dindi ürək
Küçəmizdən keçəndə sən.

***

İnciyib, söylə neçün getdin sən?
Gəl ki, qəlbim sıxılır təklikdən,
Bircə gəl, sonra otur danla məni,
Meşəsən qarşıla tufanla məni,
İstəsən sən külək ol, döy üzümə,
İstəsən zülməti çökdür gözümə,
İstəson od kimi yandır məni sən,
İstəsən candan usandır məni sən --
Bunların heç biri qorxutmur, inan,
Gəl ki, qurtar məni tənhalıqdan!

***

Əzizim, vaxtında atılmayan ox
Sürətlə uçsa da, hədəfə dəyməz,
Sən mənə günahkar söyləmə, yox, yox,
Gileyin, töhmətin əbəsdir, əbəs.

Bir yola düzəlib getdik hərəmiz,
Qaçırdıq fürsəti əldən quş kimi.
Bəlkə də unudaq keçənləri biz,
Beləco yaşamaq yaxşı deyilmi?

Sən bir ağac tapıb sığındın ona,
Nə vaxtdır dərmisən meyvəsini də.
Mənim də gəncliyim yetişdi sona,
Söylədi sonuncu nəğməsini də.

İndi sən gəl məni danlama, yox, yox,
Gileyin, töhmətin əbəsdir, əbəs,
Köhnə dost, vaxtında atılmayan ox,
Sürətlə uçsa da, hədəfə dəyməz!

YADIMA SƏN DÜŞÜRSƏN

Hər çiçəyin öz ətri,
hər gülün öz rəngi var,
Hər qəlbin öz istəyir,
öz sözü, ahəngi var.

Hər insan öz ömrünə
dost seçir, həmdəm seçir.
Mənimsə ürəyimdən
qəmli bir nisgil keçir,
Yadıma sən düşürsən.

Göydə bulud dolaşır,
axşam düşür, yel əsir,
Heç bilmirəm nədəndir
könlüm belə tələsir.
Yollarına baxıram,
nə gələn var, nə gedən.
Qəlbimdəki intizar
nədir, düşünürəm mən.
Yadıma sən düşürsən.

Təklik üz verir mənə,
çıxıram otağımdan,
Sevgililər küçədə

deyib-gülür mehriban...
Onları belə xoşbəxt,
belə məsud görəndə
Duyğular dalğa kimi
çırpınır bu sinəmdə,
Yadıma sən düşürsən.

***

Meşənin sükut dolu
Qucağında durmuşam.
Görəsən nə barədə
Susur ağcaqayın, şam?!
Sükutuyla nə deyir
Budaqlar həzin-həzin?
Bəlkə xatirəsiyçün
Kədərli eşqimizin
Belə lal kəsilibdir
Osinalar, cökələr?
Bir sorğuya tutalar,
Bir suala çəkələr...
Bu günlə xatirənin
Sərhədində durmuşam,
Görəsən nə barədə
Susur ağcaqayın, şam?!
Neçün bu tərəflərə
Güzarım düşdü bir də?!
Yol, cığır nə barədə
Görən susur bu yerdə?!
Dönüb-dönüb baxıram
Bir cüt ayaq izimə.
Hanı onun izləri,
Niyə dəymir gözümə?
Bir vaxt bu yerə düşən
İki qoşa ləpirdi,
Cingiltili qız səsi
Yola nəğmə səpirdi.

İndi nə həmin izlər,
Nə gülüş, nə nəğmə var...
Bəlkə də bu barədə
Susur yollar, cığırlar!

***

İstəmədən düşdü könül
Bir cüt gözün xatasına,
Kirpiyini ox eləyə,
Ürəyimə ata – sına.

Kim deyir ki, ona yadam?
Doğmalaşar sevsə adam.
Bağban qoya əl uzadam
Qızılgülün butasına.

Anasının bütün günü
Tutub eli səsi, ünü.
Ay Kürçaylı, aç könlünü
Qardaşına, atasına.

***

Gözünə qar üstə güllər görünsə,
Sərt külək ney çalsa qulaqlarında,
Payızda dağlarda sellər görünsə,
Qəm nəğməyə dönsə dodaqlarında,
Ayın buz ziyası yandırsa səni,
Hər ulduz bir nəhəng günəşə dönsə,
Günəşin alovu dondursa səni,
Şaxta Muğandakı atəşə dönsə,
Sərçə nəğmə desə bülbüllər kimi,
Xəzəllər yamyaşıl dəysə gözünə,
Küləkdə inləyən teleqraf simi
Bir "Kərəmi" çalsa özü-özünə,
Qoynuna düşsən də dərdin, məlalın

Yaşamaq istəsən yaşadıqca sən,
Ey dost, ağarsa da saçın, saqqalın
Demək vurulmusan, demək sevirsən.

***

Kimsə tanımırdı Məcnunu hələ,
Gəlmirdi Kərəmin səsi, sorağı.
Qərib ağlatmırdı eli saz ilə,
Fərhad da külünglə çapmırdı dağı.

Onlar gəzirdilər kənddə, şəhərdə,
Yüz-yüz adsız-sansız adam içində,
Heç biri yox idi gözdə, nəzərdə,
Dönüb baxmırdılar onlar keçəndə.

Yox, bu cavanları tanımırdılar...
Lakin Leyli vardı, Şahsənəm vardı.
İstər nökər olsun, istər hökmdar,
Şirinə, Əsliyə dönüb baxardı.

İndi sən,
gözəllik rəmzi kimisən,
Gedirsən, çöhrən də günəştək yanır.
Bir kimsə yanından keçmir dönmədən,
Hamı heykəl kimi yerə mıxlanır.

Hamı sənə baxır.
Görmürlər demək
Bu dünya üzündə bir mən də varam.
Nə eybi,
vaxt gələr mən də Kərəmtək,
Məcnuntək, Qəribtək məşhur olaram.

***

Mənim yazı stolumu
Xoşlamırsan, əzizim,
Sanırsan ki, aramızda
Bir sərhəddir o bizim.
Sanırsan ki, o alıbdır
Məni sənin əlindən,
Bu gileyi neçə dəfə
Eşitmişəm dilindən.
Səni başa düşürəm mən, –
Aylı-ulduzlu fəza
Xoş gəlməyir təyyarəçi
Könül verən bir qıza.
Dəmiryolçu sevgilisi
Heç xoşlamır qatarı,
Dənizçinin sevdiyi qız
Mavi, zümrüd suları...

***

Ayrılanda söylədin:
"On birdə zəng vuraram".
On ikiyə işləyir,
Qalmayıb səbr, aram,
Keçdi iki dəqiqə,
Telefon danışmayır,
Qəlbim dəqiqəni yox,
İndi anları sayır.
Üç dəqiqə... beş... altı...
Bu necə telefondu?
Yoxsa zənglər tufana,
Şaxtaya düşdü, dondu?
Yoxsa əsib hardasa
Soyuq şimal yelləri,
Hardasa qırılıbdır

Telefonun telləri?
İndi mən sükut dolu
Tufana dözəmmirəm
Beş günə necə dözdüm,
Beş ana dözəmmirəm.
Telefonun nömrəsi
Yoxsa çıxıb yadından?
Öz-özümə zəng vurum
Yoxsa sənin adından?
Dindi cingiltili zəng,
Bu şəfa zəngləridi.
Telefonun deyəsən
Şimal buzu əridi.

BELƏ OLA HƏMİŞƏ

Pəncərəmə uzanan
Yaşıl-yaşıl əldimi?
Yarpaqlar ilk baharın
Salamına gəldimi?
Seyr elə bu lövhəni,
Doğrudan gözəldimi?
Dayanmışıq sənlə
Qoşa, üzü günəşə,
Belə ola həmişə!

Gözlərinə baxıram,
Necə şəndir, gülümsər,
Onlarda yox qüssədən,
Sıxıntıdan bir əsər,
Sən gülməsən bircə an
Ürək titrər, can əsər,
Yoxsa günün alovu
Dolubdur bu günəşə?
Belə ola həmişə!

Saçlarına baxıram,
Gözün kimi qaradır,
Yarısı gözün üstə,
Yarısı yanlaradır,
Gülüm, yığma onları,
Qoy dağılsın, dara, dur,
O qara saçlarına
İstəmirəm dən düşə,
Belə ola həmişə!

Gör nə qədər qısaltdıq
Həsrətin mənzilini,
Ovcumda tutmuşam mən
İndi sənin əlini.

Yaman qırdıq hicranın,
İntizarın belini!
Kaş ki, bütün sevənlər
Bizim kimi görüşə.
Belə ola həmişə!

KƏDƏR NƏĞMƏSİ

Sənsiz səhərə çıxdım,
Səhər o deyil!
Sənsiz şəhərə çıxdım,
Şəhər o deyil!

Gül-çiçək tabaq-tabaq,
Dər, qoxla, sinənə tax,
Mənim gözümdə ancaq
Güllər o deyil.

Ulduz dolu gecələr
Dəyişibdir nə qədər.
Gəzdiyimiz küçələr,
Yerlər o deyil.

Sənsiz meşə o deyil,
Tər bənövşə o deyil,
Sevinc, nəşə o deyil,
Kədər o deyil!

Baxdım, günəşə, aya
Hər şey dəyişib guya.
Söylə, bu qoca dünya
Məgər o deyil?!

ROMANS

Məcnun məhəbbəti qalar kölgədə
Bizim eşqimizin sözü düşəndə.
Özgəsi düşəndə dodaq büzənin
Göy necə olurmuş özü düşəndə.

Bu acı həsrətdi, yoxsa vüsaldı?
Hökmündən qurtarmaq əmri-mahaldı.
Səbri-qərarımı əlimdən aldı
Sevən gözlərimə gözü düşəndə.

Mən səni gözlərəm boran içində,
Qasırğa içində, tufan içində.
Ömrümdən fəsillər, illər keçəndə,
Saçıma illərin izi düşəndə.

***

Dedin: sevmirəm səni,
Bu sözünə inandım.
Düşdüm qəm girdabına,
Yandım, içimdə yandım.

Səni itirməyimlə
Kainat itdi sandım.
Getdin, bu gedişinlə
Sevincim getdi sandım.

İnandım, sevməyirsən...
Dost məclisində fəqət.
Eşqimdən, taleyimdən
Bu gün gedəndə söhbət.
Deyirlər ki, susmusan,
Sözünü saxlamısan.
Ancaq hönkürtülərlə
Hıçqırıb ağlamısan...

***

Oğlanlar, evlərdə qızlar böyüyür,
Sizin gözləriniz baxmasın yana.
Məhsəti, Natəvan, Nigar böyüyür,
Hər biri layiqdir bir mərd oğlana.

Oğlanlar, evlərdə qızlar böyüyür,
Bir ələ dəyməmiş əli qızların.
Yanağı lalələi bahar böyüyür,
Lap üzükdən keçər beli qızların.

Oğlanlar, evlərdə qızlar böyüyür,
Qüdrətdən çəkilib rəngi, boyası,
Elə bil budaqda nübar böyüyür,
Üzündən öpməyib doğma anası.

Oğlanlar, evlərdə qızlar böyüyür,
Hələ kəsilməyib şahmar hörüklər,
Evlərdə, sədaqət, vüqar böyüyür,
Sizi arxasınca çəkib sürüklər.

Oğlanlar, evlərdə böyüyən qızlar
İsmət pərdəsindən çıxmayıb hələ,
Sınayın, onlarda vəfa, etibar
Əskilməz bir gilə, solmaz bir gilə.

Oğlanlar, evlərdə qızlar böyüyür,
Kənara, yad yerə çox baxmayın siz.
Oğlanlar, evlərdə qızlar böyüyür,
Oğlanlar, tələsin gecikərsiniz!

***

Kim deyir ağaclar hissiz, duyğusuz,
Kim deyir ağaclar ürəksiz olur?!
İnsanın talcyi gəlsə uğursuz
Ağacın möhnəti birə-yüz olur.

Yazda yarpaqladı qovağım mənim,
Başımın üstündə çətrini açdı.
Yəqin bildi sənsən qonağım mənim,
Dinar yarpaqların ətrini saçdı.

Bir gün dönük çıxdın öz ilqarına,
Getdin,
sözün qaldı, həsrətin qaldı.
Dən düşdü qovağın yarpaqlarına,
Xəzan vurmuş kimi soldu, saraldı.

Bir gün özgəsinə verdin könlünü,
Sanki günəş söndü, bulaq qurudu.
Ağacda qəlbə bax,
elə o günü
İlk eşqin şahidi qovaq qurudu!

***

Məni sənə bağlayan
Eşqim, məhəbbətimdir,
Yollarında saxlayan
Sənə sədaqətimdir.

Tutsun ərzi duman, çən,
Qar olsun, dözərəm mən.
Ürəyimi isidən
Sənin hərarətindir.

İstəmirəm gül-çiçək,
Ömrün yolu daş-kəsək,
Hər bəlaya dözəcək
Sənin dəyanətindir.

Nədir vəfa, etibar?
Söz desəm artıq olar.
Mənim bu eşqim ki var
Sənin əmanətindir.

***

Ovçumusan, ovmusan?
Qovulmusan, qovmusan?
Bir parça alovmusan?
Yandırdın, ay qız, ay qız!

Əsdi dağlar küləyi,
Yerə saldı örpəyi,
Bu görkəmdə mələyi
Andırdın, ay qız, ay qız!

Aymısan, ulduzmusan?
Ürəyimi üzmüsən,
Şaxtamısan, buzmusan?
Dondurdun, ay qız, ay qız!

Boğdun eşqin səsini –
Məhəbbət nəğməsini,
Könlümün şüşəsini
Sındırdın, ay qız, ay qız!

HƏR ŞEY SƏNİNDİR

Güllər açır – sənindir,
Ətir saçır – sənindir,
Mənə nə qaldı?

Şimşək çaxır – sənindir.
Yağış yağır – sənindir,
Mənə nə qaldı?

Xəzər coşur – sənindir,
Nəğmə qoşur – sənindir,
Mənə nə qaldı?

Əsən külək – sənindir,
Sevən ürək – sənindir,
Mənə nə qaldı?

Gələn bahar – sənindir,
Nə var, nə var – sənindir,
Mənə nə qaldı?

HEÇ XƏBƏRİN YOXDU SƏNİN

Aləm bilir bu həsrəti,
Sinəmdəki məhəbbəti,
Heç xəbərin yoxdu sənin.

Göylər yanır ulduz-ulduz,
Dolaşıram mən yuxusuz,
Heç xəbərin yoxdu sənin.

Nəğmələrim zilə gəlir,
Dağ da, daş da dilə gəlir,
Heç xəbərin yoxdu sənin.

Vurğun etdin özün məni,
Güldürər bir sözün məni,
Heç xəbərin yoxdu sənin.

Çoxmu çəksin bu möhnətim,
Ay dilbilməz məhəbbətim?
Heç xəbərin yoxdu sənin.

***

Mən səni yuxuda görürəm hər gün
Ən şirin arzular, diləklər kimi.
Hərdən qanad açıb pərvaz edirsən
Başımın üstündə mələklər kimi.

Hərdən vüsal olur hədiyyən mənə,
Həsrət yaxın düşmür qətiyyən mənə,
Hərdən etinasız baxıb sən mənə
Ötürsən yanımdan küləklər kimi.

Hərdən üşüdürsən məni qar kimi,
Hərdən yandırırsan od, şərar kimi,
Çöhrən gah olur gilənar kimi,
Gah solur don vuran çiçəklər kimi.

Məni əfi kimi çalıb yuxular,
Qovğa dünyasına salıb yuxular,
Səbri-qərarımı alıb yuxular,
Sərgərdan olmuşam böcəklər kimi.

Demirəm yanıma ilk baharda gəl,
İstəsən tufanlı ruzigarda gəl.
Ancaq yuxuda yox, aşikarda gəl,
Gəl, sözlü, nəğməli ürəklər kimi.

YOXSA...

Yoluna baxıram mən dönə-dönə,
Hər kölgə bir vüsal vəd edir mənə.
Məktubun arası kəsildi yenə,
Günahkar qələmmi, kağızmı? Yoxsa...

Bilir həsrətimi məni eşidən,
Könül kövrək olur nazik şüşədən.
Məni gah yandıran, gah da üşüdən
Bitməz ayrılıqmı, payızmı? Yoxsa...

Namərddir bir dönük eşqə ağlayan,
Soyuq köks ötürüb diz qucaqlayan.
Sevgi dastanımı tərs varaqlayan
Küskün taleyimmi, o qızmı? Yoxsa...

GÜZGÜ QABAĞINDA

Güzgü qabağında dayanmısan sən,
Öz ay camalınla bəhsin gözəldir.
Özün "mən" deyirsən, əksin "mən" deyir,
Söylə, sən gözəlsən, əksin gözəldir?

Güzgü qabağında çox dayanırsan,
Süzüb ay çöhrəni, xumarlanırsan,
Nəğmə deyə-deyə tumarlanırsan,
Hüsnünü vəsf edən səsin gözəldir.

Yel vurdu tellərin dağıldı birdən,
Saçın rübənd oldu, gizləndi çöhrən.
Uzaqdan seyr edib bu lövhəni mən
Dedim: qara tellər, əsin, gözəldir!

Bir günəş cilvəsi çəkdin güzgüdə,
Bir həyat nəşəsi çəkdin güzgüdə.
Rafael lövhəsi çəkdin güzgüdə,
Baxanlar heyrətlə desin, gözəldir!

***

Qüssəli çağlarında
Sənin dodaqlarında
Təbəssüm görünübsə,
Gülüşə bürünübsə
Kədərlərin bir anda –
Bu uğurlu zamanda
Demək hələ mən varam!

Ümid dumanda, çəndə
Səni atıb gedəndə,
Qəlbinə şölə kimi,
Kiçik bir gilə kimi
Təzə ümid dolubsa,
Belə günün olubsa,
Demək hələ mən varam!

Qış – şaxtadan qılıncı,
Çiynində ağ yapıncı
Əlini kəsən zaman,
Sərt yellər əsən zaman
Bir çiçək görmüsənsə,
Əyilib dərmisənsə,
Demək hələ mən varam!

Baharınam xəzanda,
Bələdçinəm azanda,
İşığınam zülmətdə,
Həyatınam qürbətdə,
Sənin çətin anında
Mən hazıram yanında,
Demək hələ mən varam!..

SƏSLƏ MƏNİ

Harda olsam gələrəm,
Təki sən səslə məni,
Darda olsam gələrəm,
Təki sən səslə məni.

Yaxın olsun, ya uzaq,
Dərə olsun, ya da dağ,
Məni kim saxlayacaq?
Təki sən səslə məni.

Yatmaram illər ilə,
Əsərəm yellər ilə,
Gələrəm sellər ilə
Təki sən səslə məni.

Eşqə yurd isə sinəm,
Qocalıq gəlsə nə qəm,
Dönərəm gəncləşərəm,
Təki sən səslə məni.

Sənsən eşqim, əməlim,
Gəlsə bir gün də ölüm,
Vermərəm can, a gülüm,
Təki sən səslə məni.

BAŞIMA GƏLDİ

Gör arxamca necə düşüb fəsli-baharım,
Məni yalqız buraxmadı, qışıma gəldi.
O, daradı saçlarımı yaz yelləriylə,
Çiçək taxdı torpağıma, daşıma gəldi.

Yandı üfüq, açdı çiçək, köpürdü sular,
Körpə kövrək tumurcuğa döndü duyğular.
Cana gəldi donuq hisslər, ölən arzular,
Könlümdəki bu intibah xoşuma gəldi.

Bu nə idi? Qınamıram mən təbiəti,
Sevənlərdən əsirgəmir saf məhəbbəti.
Elə bil ki, bu dünyanın dadı, ləzzəti
Bircə anda çörəyimə, aşıma gəldi.

Bu sözləri mən hər dosta, yada demişdim,
– Verdim eşqi, məhəbbəti bada – demişdim.
Mən ki sevgi sevdasına vida demişdim,
Ay həzərat, bu nə işdi başıma gəldi?!

***

Eşqin bayrağından elə tutmuşam,
Sanki məhəbbətin bayraqdarıyam.
Dönüb gəncləşirəm sevgi deyəndə
Kim mənə deyir ki, ömrü yarıyam?!

Günəş parçasıdır sinəmdə ürək,
Kimsə vurulmayıb hələ mənimtək.
Sevgilim istəsə, çöllərdə çiçək,
Dağlarda dənəvər quzey qarıyam.

Üzümü xəzana çevirsəm əgər,
Saralmış otlar da yaşıl don geyər.
Əl vursan hər pərdəm bir nəğmə deyər,
Məhəbbət kamanı, sevgi tarıyam.

Sinəmdə döyünən bu ürəklə mən
Keçmişəm nə qədər keşməkeşlərdən.
Arabir düşsə də saçlarıma dən
Mən çətin qocalam, çətin qarıyam.

Sevgidə igidlik gəzir gözəl də,
Eşqin fədaisi mənəm bu eldə.
Dədə Füzulinin Vahid qəzəldə,
Mən isə sevgidə yadigarıyam.

***

Laklı çəkmə ayağında,
Enli kəmər belində,
Durdu güzgü qabağında,
Zərli daraq əlində.

Saçlarına sancaq taxdı,
Burdu, yığdı bir qalaq.
Öz-özünə bir də baxdı –
Qamət çinar, sinə dağ.

Anasının sürməsindən
Azca çəkdi gözünə.
Birçəyinin hörməsindən
Halə etdi üzünə.

Sürtdü boyun-boğazına
İki damcı loriqan
Ürkək-ürkək dörd bir yana
Baxıb, çıxdı otaqdan.

Elə bil ki, sıyrılırdı
İti qılınc qınından
Demək bu gün ayrılırdı
Qız öz uşaqığından.

SAÇLAR

Aylar, illər, fəsillər qovsa da bir-birini,
Tamam açа bilmirik bu həyatın sirrini.
Lap biri sən,
biri mən, bunu indi tapmışıq –
Sən demə, oxunmamış qalın bir kitabmışıq.
Yol gedirik sənlə yanaşı nə zamandı,
Vaxt oldu səfərimiz illər boyu uzandı.
Biz adi yoldaş olduq yaxın qonşular kimi,
Bir-birinə hörməti, ehtiramı var kimi,
Gözlərin –
adi gözlər,
Qaşların –
adi qaşlar.
Kürəyinə tökülən saçların –
adi saçlar.
Mənimçün adi idi baxışının mənası,
Onlardan yoxdu əsla könlümün təmənnası.
Adi bir insan idim mən də sənin yanında,

İtmişdik ikimiz də adilik dumanında.
Lakin bu gün dəyişdin gözümdə röya kimi,
Sən açıldın qarşımda əsrarlı dünya kimi.
Kürəyinə tökülən o xurmayı tellərə
Əlim dəydi bilmədən –
ürək düşdü yellərə.

Sən demə ki, günəşə əl vurmaq olmazmış heç,
Dağ selinin önündə tək durmaq olmazmış heç,
Qaynar polad ovuca tökülməzmiş sən demə.
Qılınc əllə qanrılıb bükülməzmiş sən demə.
Sən demə, cərəyantək kül edərmiş qapqara
Əl vuranda çiyninə dağılan o saçlara.

***

Taleyimin göylərində
Yanan da sən, sönən də sən.
Mənə ilkin qəlb açan da,
Məndən üzü dönən də sən.

Salammazdı səni bəndə
Göydə bulud, yerdə çən də.
İndi seyrək görünən də,
Aya-günə dönən də sən.

Ürək teli sənə bağlı,
Ümid əli sənə bağlı.
Keçib getdin qaşqabaqlı –
Bu gün də sən, dünən də sən.

Bahar dedin, indi qışdı,
Axı, səbir kasam daşdı.
O ürəkdi, yoxsa daşdı –
Gəzdirirsən sinəndə sən?!

***

Gəl, dünyanı gəzək qoşa,
Sən mənimçün,
Mən sənincün.
Bu yollarda dolaq yaşa
Sən mənimçün,
Mən sənincün.

Dağa baxaq, düzə baxaq,
Sözsüz belə sözə baxaq,
Yalnız bir cüt gözə baxaq
Sən mənimçün,
Mən sənincün.

Yazda dolu bulud olaq,
Yayda yaşıl söyüd olaq,
Ağır gündə ümid olaq
Sən mənimçün,
Mən sənincün.

Adlayaq əllini. yüzü,
Qoy sınasın həyat bizi.
Hüfz eləyək eşqimizi,
Sən mənimçün, mən sənincün.

***

Yerə salma sözümü,
Gizlət qara saçlarının zülmətində üzümü.

Yoxla məndə dözümü,
Aylar, illər, qərinələr qatlayammaz dizimi.

Ölüm örtər gözümü,
Fəqət silə bilməz sənin yolundakı izimi.

Gizlət qara saçlarının zülmətində üzümü,
Yerə salma sözümü.

***

Sevənlərin nə vecinə
Şaxta kəssin nə qədər,
Məhəbbətin gücünə
Ürək coşar, isinər.

Sevənlərin nə vecinə
Yolu kəssin dərə, dağ,
Dəyanətin gücünə
Ürək dağlar aşacaq.

Sevənlərin nə vecinə
Yaş yüz əlli olacaq,
Sədaqətin gücünə,
Ürək cavan qalacaq

Mat qalmışam mən bu işə –
Məhəbbətin gücünə,
Dəyanətin gücünə
Ürək sevir həmişə.
Sevənlərin nə vecinə...

***

Yanaqlar odlu lalə,
Saçlar qara şəlalə,
Qaşlara bax, qaşlara,
Dartılıb halə-halə.
Qızlar belə deyildi
Biz tələbə olanda.

Qırçınlı ipək donu
Gözəl göstərir onu.
Sanki bəyaz mərmərdən
Mikelancelo yonub.
Qızlar belə deyildi
Biz tələbə olanda.

Qara gözlər badamı,
Dəli elər adam
Bir yol dönüb baxmaqla
Yandırıbsan atamı.
Qızlar belə deyildi
Biz tələbə olanda.

Telləri çətir-çətir,
Oğulsan davam gətir
Gözünün zülmətində
Adam yol azır, itir.
Qızlar belə deyildi
Biz tələbə olanda.

Danışır – sözü nəğmə,
Yeriyir – izi nəğmə,
Belə məftun etməyib
Heç zaman bizi nəğmə.
Qızlar belə deyildi
Biz tələbə olanda.

Hər gülü dərməmişik,
Yara göndərməmişik,
Yəqin biz səhv etmişik.
Biz fikir verməmişik,
Qızlar elə beləymiş
Biz tələbə olanda.

***

(*Zarafatyana*)

Getdin. Bir acıqla çırpdın qapını,
Söz verdin – bir daha gəlməyəcəksən.
Qırdın ürəyimin titrək sapını,
De, necə dözərəm sənsizliyə mən?

Bir saat keçməmiş qayıtdın geri,
Dedin: – Əlcəklərim çıxıb yadımdan,

Qəsdən unutmuşdun sən əlcəkləri,
Demək əl çəkmişdin öz inadından.

Duydum gözlərinə baxdığım anda,
Orda gülüş vardı qəzəb yerinə.
Əlacım olsaydı geniş meydanda
Mən heykəl qoyardım əlcəklərinə.

UCALIQ

Xatirinə düşürmü ilk görüş çağlarımız?
Onda nə əllərimiz, nə də dodaqlarımız
Hələ görüşməmişdi.
Sevdanın ilk anları!
Neçə aşxanaların, neçə restoranların,
Çayçı dükanlarının, qəlyanaltıxananın,
Ləziz nemətlər dolu neçə-neçə binanın
Keçib getdik yanından.
Xörək ətirlərinə,
Kabab tüstülərinə rast gəldik dönə-dönə.
Onların da yanından biz keçdik gülə-gülə,
Mindik yer şarı boyda nəhəng bir karuselə.
Mən heç başa düşmədim –
ac imişsən demə sən,
Yalnız səhər tələsik birco tikə yemisən,
Karusel fırlanırdı, biz qalxırdıq yuxarı,
Meh alnıma, üzünə dağıdırdı saçları.
Biz qalxırdıq, qalxırdıq, qalxırdıq pillə-pillə.
Az qala ulduzları tutacaqdım mən əllə.
Ürəyimdən bu zaman keçdi dəli bir istək:
Düzüm ağ ulduzları boynuna mirvaritək.
Biz qalxırdıq:
indi lap yaxın idi Ay mənə,
İstədim alıb onu taxım sənin sinənə.
Mənim ağılsız eşqim!
Sənin fikrindən bəlkə
Bu vaxt keçirmiş yavan, barmaq boyda bir tikə!

***

Orda iki nəfər küsdü, barışdı,
Hayıf, biz deyilik o iki nəfər.
Yoxsa sinəmizdə söz qalmamışdır,
Hanı bir zamankı atəşli sözlər?

Ucalır nəğməsi iki nəfərin,
Hayıf, nəğmə deyən nə mənəm, nə sən.
Hanı intəhasız o nəğmələrin?
Kim qıfıl asıbdır mənim dilimdən?

Bahar çiçəyinin ətri nə xoşdur,
Əllərdə alışan əlvan dəmətdir.
Bizim əllərimiz yenə də boşdur,
Yoxsa bizim üçün çiçək qəhətdir?

Qopdu iki gülüş, iki qəhqəhə,
Biz ötə bilməzdik bu dildə məyər?
Sanki daş dəyibdir büllur qədəhə,
Bizim gülüşümüz cingildəməyir.

Tükəndi nəğməmiz, soldugülümüz,
Danışmaq yerinə sözü kəsirik.
Əzaba döndərdik məhəbbəti biz,
Qışda odlanırıq, yayda əsirik.

***

Mənə nəvazişlə dedin bu axşam:
Bir az cavanlaşıb, yaxşılaşmışam.
Yanağım allanıb, çöhrəm təzə-tər,
Görən yeniyetmə cavanam, deyər.
Dən düşən saçlarım qaralıb sanki...

Sevgilim, əzizim, mənə inan ki,
Mən elə həminəm – ömrü tən yarı,

İndicə saydığın bu nişanları
Hünəri, həvəsi, şir qüvvətini,
Cavanlıq odunu, hərarətini
Mənə sən qaytardın, mehribanım sən,
Gəncliyim qayıdır səni sevəndən...

TƏKLİK

Payız göylərinin boz aynasında
Uçdu axırıncı durna qatarı.
Sıxıntı fəslinin qəm havasında
Dindi durnaların son nidaları.

Çinarda tək yarpaq – dənizdə ada,
Bir üzü yaşıldı, biri gümüşdü.
Düşdü, xəzəllərə qarışdı o da,
O da tənhalığa dözmədi, düşdü.

Tək-tənha dolaşıb göyün üzündə
Təkliyə dözmədi, günəş də batdı.
Onunla şəfəqli bir gündüzün də
Bir günlük həyatı axıra çatdı.

Tənhalıq yamandır, gülüm, yamandır,
Təklik sınağına sən az çək məni.
Sularda qərq elə, tonqalda yandır,
Fəqət qoyma yalqız, qoyma tək məni.

HƏSRƏTİN

Getdin,
Həsrətinə tapşırdın məni,
Tək qala bilməzdim qəmlə, kədərlə.
Həsrətin danışdı olub-keçəni,
Məni ovundurdu xatirələrlə.

Sənli günlərimi anıb danışdı,
Canlandı qarşımda surətin sənin.
Mənim əvəzimə yanıb danışdı,
Səndən vəfalıymış həsrətin sənin.

Həsrətin sinəmdə illəndi qaldı,
Mən ondan alıram sənin ətrini.
Həsrətin gözümdə gölləndi qaldı,
Yaman istəyirmiş mənim xətrimi.

Onundur ya sənin sinəmdəki dağ?
Bəhsə giribsiniz dağ çəkməkdə siz.
Həsrətin yaxındır, sən özün uzaq...
Gərək yerinizi dəyişəydiniz...

***

Gecədən şeh düşdü güllərin üstə,
Evlərin damında gölləndi qaldı.
Dan yeri söküldü,
Günəş ahəstə
Üfüqün qövsündən qalxdı, ucaldı.

Bir anda yox oldu şeh danələri
Qızmar bir tavaya düşən damcıtək.
Elə bil alından sildilər təri,
Elə bil zivədə qurudu örpək.

Məhəbbət güllərin üstə şeh deyil,
Deyəsən tez keçir, ömrü bir andır.
Bunu nə zamansa bir aqil deyib:
Məhəbbət dənizdir, çaydır, ümmandır!

Aylar dolansa da, il dolansa da,
Eşqin ürəklərdən silinmir izi.
Milyon illər boyu günəş yansa da,
Quruda bilməyir çayı, donizi!

ƏBƏDİYYƏT

Mən sənin nəğmənin əks-sədası,
Könlünün tükənməz arzularıyam.
Qışında – bir ilıq bahar havası,
Yayında – bir sərin quzey qarıyam.

Gecə zülmətində, qaranlığında
Qəfildən parlayan qəmərinəm mən.
Kədərli çağında, qəmli çağında
Dərdini dağıdan xəbərinəm mən.

Səadətlə keçən illərinəm mən,
Mənsiz itirirsən bu səadəti.
Günəşə uzanan əllərinəm mən,
Məndədir qəlbinin od hərarəti.

Mən sənin yaşanmış dəqiqələrin,
Hələ yaşanacaq ayın, ilinəm.
Mən sənin məhəbbət adlı əsərin,
Sevgi xallarıyla ötən dilinəm.

Mən sənin...
Təsviri mümkünmü məgər?
Hər şeyi söyləmək çətindir, çətin.
Axı, necə deyim... Dağlar, dərələr
Kiçik zərrəsidir əbədiyyətin.

YADINA DÜŞÜRƏMMİ?

Qaldı, arxada qaldı ömrün xoşbəxt illəri,
İndi mənim əlimə dəymir sənin əllərin.
Söylə, hərdən əsəndə soyuq payız yelləri,
Dağılanda üzünə o pərişan tellərin,
Deyirsənmi olaydıq eşqin gonclik yazında?

Heç olmasa xəyalın dumanlı aynasında
Sənlə bir anlığa gəlib görüşürəmmi?
Yadına düşürəmmi?

Səadət fürsətini qaçırdıq sən də, mən də,
Onu köhlən at kimi salmalıydıq kəməndə.
Hərdən sevda yolunu azıb dumanda, çəndə,
Sənə ümid verəcək bir işıq görməyəndə
Bələdçi olurammı cığırlar arasında?
Heç olmasa xəyalın dumanlı aynasında
Sənlə bir anlığa gəlib görüşürəmmi?
Yadına düşürəmmi?

Gəl, indi xatırlayaq bütün olanları biz,
Özümüz yazmalıykən hökmü biz, qərarı biz.
Taleyin əllərinə verdik ixtiyarı biz,
Günah kimdədir görən? Mən bilmirəm! Barı ,biz
Bir nişanə qoymadıq xatirə dünyasında
Heç olmasa xəyalın dumanlı aynasında
Sənlə bir anlığa gəlib görüşürəmmi?
Yadına düşürəmmi?

***

Həkim, mənə o nüsxəni yazma sən,
Mənim dərdim başqa dərman istəyir.
Bir cüt ulduz uzaq düşüb gözümdən,
O gözləri könlüm yaman istəyir.

O pərişan saçlarının burması
Məni belə eləyibdir pərişan.
Hanı nazla oturması, durması,
Hanı, hanı, o küsməmiş barışan?

Gözlərimi dumanladan yaşların
Qarşısında necə durum, dayanım?
Hanı, azca çatılanda qaşlarım
Yarım sözdən ürəyimi duyanım?

Hanı qəmli çağlarımın qənimi,
Hanı xoşbəxt günlərimin ortağı?
Söz gülləsi yandırmamış sinəmi
Hanı onun canlı sipər olmağı?

Həkim, məni dava-dərman sağaltmaz,
Durmağımı istəyirsən əgər sən –
O nüsxəni bir saatlıq görüş yaz,
Bir saatlıq...
Hikmətini görərsən!

1979

***

Ölüm yaxın düşə bilmir
Bircə böyük məhəbbətə.
Xəstəxana paltarında
Mən inandım bu hikmətə.

Sən də yaxşı bilirdin ki,
Dərmansızdır mənim dərdim.
Bəlkə də sən olmasaydın
Bu dünyanı tərk edərdim.

Bilirdim ki, gözləyirsən
Axşam, səhər, gecəyarı,
Səpələnib yola, düzə
Bir cüt gözün intizarı.

Bilirdim ki, gözləyirsən
Su gözləyən torpaq kimi.
Bir qığılcım həsrətlisi
Odu sönmüş ocaq kimi.

Gözləyirən müjdə kimi,
Bir gecikmiş xəbər kimi,
Tutqun göydə al günəşi
Gözləyən bir səhər kimi.

Ürəyində qorxu vardı,
Baxışında duman vardı,
Xəyalında qovulası
"Bəlkə" vardı, güman vardı.

"Bəlkə"lərin, gümanların
kövrək simdən asılıydı.
Sən bilmirdin mənim ömrüm
Nədən, kimdən asılıydı.

Lakin yenə gözləyirdin
Yığnağında "bəlkələrin".
Səni qoyub gedəmməzdim
Qucağında "bəlkələrin".

Səni qoyub gedəmməzdim,
Onda namərd olardım mən.
Torpağa da, məzara da
Ağır bir dərd olardım mən.

Gedəmməzdim, yorğan-döşək
Salsaydı da haldan məni.
Gözləməklə qaytardın sən
Gedər-gəlməz yoldan məni.

1979

***

Qarğalar qar üstə qara xalmıdır?
Küknarlar yamyaşıl alova bənzər,
Çöllərin örtüyü bəyaz şalmıdır?
Təpələr çəkilmiş plova bənzər.

Qəmli xəstəxana pəncərəsindən
Ürəyim qar üstə çiçək axtarır.
Rusiya qışının mənzərəsindən
Baxışım üçatlı xizək axtarır.

Çılpaq ağacların budaqlarından
Meh əsdək sökülür qar uçqunları.
Qopur bu nisgilli dodaqlarımdan:
"Hanı Abşeronun yaşıl baharı?"

Hanı cır alçanın, kağız badamın
Yazda qar yağdıran ağ çiçəkləri?
Günəş isidəmmir burda adamı,
Buludlar qoynunda hey imək̈ləyər.

Bəyazlıq hökm edir,
Nə gül, nə çəmən, –
Loğmanlar axtara tapmaz sənincün.
Bir az Bakı üçün darıxıram mən,
Bir az bahar üçün,
Bir az sənincün.

1979

***

Xəstəxana qucağında
Səsin gəldi otağıma.
Ürək yaxan bu çağımda
Gülüş qondu dodağıma.

Əlim çiçək dəstələdi,
Qəlbim nəğmə bəstələdi,
Telefonun dəstəyini
Möhkəm sıxdım yanağıma.

Bu səs şəfa çeşməsiydi,
Bu səs həyat nəfəsiydi.
Bu səs günəş zərrəsiydi
Səpələndi yatağıma.

1979

***

Dilim qabar oldu "gəlmə" deməkdən,
Sən elə əvvəl də belə dəcəldin.
Keçib fırtınadan, qardan, küləkdən
Sən yenə bu axşam yuxuma gəldin.

Burda dərman ətri, xəstə naləsi,
İtib bütün rənglər, hər tərəf ağdır.
Sənin yanaqların – o dağ laləsi
Burda dözməyəcək, ağaracaqdır.

Bura yuxuda da gəlmə, əzizim,
Görkəmi can sıxır, ürək qanadır.
Bura yuxuda da gəlmə, əzizim,
Bura qəmli yerdir – xəstəxanadır.

***

Gündüzlər birtəhər ovunur yenə,
Bilirsən nə çəkir xəstə gecələr?!
Elə bil göylərdən ağ yağış kimi
Dərd yağır dərdinin üstə gecələr.

Görüş arzulayır, arzu – bal dadır,
Hər addım səsi də onu aldadır.
Onunçün həmişə gözü yoldadır,
Həmişə qulağı səsdə gecələr.

1979

***

Burda min şövq ilə biz
Görüşərdik o zaman.
Burda gənc qəlblərimiz
Keçirib min həyəcan.

Bu yaşıl kürsülərin
Oturardıq üstə
Anıram mən, o sənin
Tutduğun güldəstə –

Toxunarkən üzümə
Sən gülərdin ucadan.
Burda gənc qəlblərimiz
Keçirib min həyəcan.

Yadımızdan çıxmaz
O yaşıl yarpaqlar,
Çox tanışdır sənə də
O söyüdlər, o çinar.

Onların gövdəsinə
Yazdıq öz eşqimizi.
Quşlar öz nəğməsinə
Valeh etmişdi bizi.

Burda idik hər yaz,
Yay, payız – son ayacan.
Burda gənc qəlblərimiz
Keçirib min həyəcan.

O gözəl günlər hanı?
Hardasan indi de, sən?
Burda keçmiş bir anı
Qaytaraydım geri mən!

Qaytaraydım səni də,
Elə gənc, sadə, gözəl!
Və deyəydim: yenə də
Bu yaşıl bağçaya gəl.

Bağ həmin bağdır, inan:
Necə görmüşdük biz.
Burda bir sən yoxsan,
Bir də ilk gəncliyimiz!

Moskva, 1956

***

Uzanır mavi dəniz, yox sonu, yox əvvəli də,
Nə genişdir, nə dərindir, necə safdır suları!
Dayanıb mən onu seyr eləyirəm sahildə.
Heç nəyim olmasa da, dostlarım, aləmdə barı
Mənim olsun deyirəm tək bu gözəllik, saflıq
Bu genişlik, bu dərinlik, ilahi şəffaflıq.

MƏNİM GƏNCLİYİM

Külək əsir... Yağan qarı
Çökəklərə doldurur.
Qar örtdükcə dolayları
Nə cığır, nə yol durur.
Elektrik dirəkləri
Yel əsdikcə laxlayır,
Qışın dəli külәkləri
Keçənləri saxlayır.
Gah qapını, pəncərəni,
Gah tavanı döyür yel.
Dəli çovğun dağ-dərəni
Düzləyəcək elə bil.
Sanki bir də susmayacaq
Bu sərt çovğun, bu boran...
Səhər oldu baxdım, ancaq
Sakit idi asiman.
Yer üzünü örtsə də qar
Göyün üzü duruldu,
Yoxsa ruzgar, dəli ruzgar
Birdən-birə yoruldu?
Gəncliyim də belə keçdi –
Dünənki ruzgar kimi:
Sinə vurub elə keçdi,
Susdu dalğalar kimi.
Coşdurammaz onu bir kəs,

Kim qaytarar onu, kim?
Yox, yox, bir də geri dönməz
O dəlisov gəncliyim.

Moskva, 1957

***

Dəniz sakit, hava ilıq, arabir
Eşidilir bir ürəyin qəm səsi.
Yayılaraq qaranlıqda əriyir
Bir yadelli dənizçinin nəğməsi.

Haralıdır? – deyəmmərəm bunu mən,
Anlamıram o qəribin dilini.
Bilirəm ki, bir həsrətdir titrədən
Dənizçinin ürəyinin telini.

Nədir onun nəğməsində oxunan –
Vətəninmi, bir qızınmı həsrəti?
Ah, biləydim ürəyinə toxunan
O nisgili, intizarı, möhnəti.

İKİ MƏKTUB

"...Məni yaman unutmusan, oğlun olandan,
Elə onu soruşursan, onu hər zaman.
Yalnız mənim adım idi dodaqlarında
Yalnız mənim səsim idi qulaqlarında.
İndi isə tək oğlunu salırsan yada...
Məktubun başında da, ortasında da
Elə onu soruşursan, onu hər zaman,
Məni yaman unutmusan oğlun olandan..."

"...Mən sevirəm səni yenə; aylı gecələr
Görüşünə can atdığım gəncliyin qədər.
Yox, sevgilim, nahaq yerə gileylənirsən...

Məktub yazıb oğlumu hər soruşanda mən
Dodağımda noğmə kimi səslənir adın
Gülüm, oğlum olardımı, sən olmasaydın?!"

Moskva, 1955

***

Yanır dənizdə bir fanar,
Keçir xəzan, gəlir bahar –
Fanar yanır fəsil-fəsil,
Boran coşur, külək əsir.
Fanarsa sönməyir yanır,
Coşan sular işıqlanır.
Üzür sularda min gəmi,
Sükançının nədir qəmi –
Yanırsa sübhədək fanar,
İşıq saçırsa tək fanar?!

Mənim də məqsədim durur
Yolumda bir fanar kimi.
Onun gözündədir bu nur,
İşıqlı lampalar kimi,
Yolumdadır fanar kimi.

MACƏRA

O çıxdı qarşıma gülümsəyərək,
Gözəl, yaraşıqlı, boylu, buxunlu.
Məsumdu Sikstin madonnasıtək,
Dedim, mən axtaran elə budur, bu...

Bizim ilk tanışlıq mərasimimiz
Çox uzun çəkmədi. (Nəyə gərəkdir.
Dedim, əbədilik dost oluruq biz,
Zaman hər bir şeyi göstərəcəkdir.)

Bəli, bu tanışlıq çox asan oldu,
Sandım ki, tapmışam gözəl bir inci.
İlk görüş yerimiz restoran oldu,
O təklif elədi bunu birinci.

Gecəyarıyadək oturduq qoşa,
Mənim göz qapağım artıq enirdi.
Şampan şərabları hey daşa-daşa
Büllur badələrdə köpüklənirdi.

Hər şeyin öz vaxtı, öz vədəsi var,
Gərəkdir hər şeyin qədəri olsun.
Bəli, şərabın da öz nəşəsi var,
Ancaq ağlın bundan xəbəri olsun.

Çıxıb restorandan biz yola düşdük,
Xoş bahar gecəsi artıq yarıydı.
Sakit küçələrdə yüz yol öpüşdük,
Şahid göy səmanın ulduzlarıydı.

(Şair, süzmə məni gözlərində kin,
Məni salacaqsan şerə sal, nə qəm.
"Müsbət" qəhrəmanın deyiləm sənin
Ki, öpüş bilməyəm, şərab bilməyəm.)

Biz onun evinə gəldik birbaşa
Oturduq, danışdıq, güldük doyunca.
Baxdım yorulmadan o gözə, qaşa
Baxdım gözlərimə yuxu qonunca.

Mən heç soruşmadım o qız təkmidir,
Nəyi var qardaşdan, ata-anadan?
Bu evə bir kimsə gələcəkmidir,
Yoxsa o özüdür burda hökmran?

Hisslər ağlımıza üstün gələndə
Hər şey unudulur, deyim səmimi,
Ömrümdə ilk dəfə özümü mən də
Apardım onunla kişilər kimi...

Nəşələr içində açdıq səhəri,
Günəş boylananda oyandıq biz də.
Dünənki o gözəl xatirələri
Yenə canlandırdıq ürəyimizdə.

Elə bilirdim ki, mənimdir aləm,
Mənimdir o gözəl, boy, buxun, bədən...
Qapının zəngini çaldılar bu dəm,
O tələş içində qalxdı yerindən.

Baxdı gözlərimə, baxışlarından
Mən aydın bildim ki, gələn əriydi.
Demək dodağımda sübhədək yanan
Ərli bir arvadın öpüşləriydi!

O açdı qapını gülümsəyərək,
Sarıldı ərinə bərk-bərk bir anda...
Məsumdu Sikstin madonnasıtək,
Yox! Yüzqat məsumdu madonnadan da!

Vətən ətri

Qəlbin sıxılsa əgər...

AZƏRBAYCAN

Mən könlümü təzəcə eşqə düşənlər kimi
Pıçıldamaq istərəm – eşidilməsin səsim.
Sevgi etirafımı, bu vurulan qəlbimi
Elə açmaq istərəm bir kimsə eşitməsin.

Eşqimi ovuc-ovuc torpağına, daşına
Səpərəm, qız başına şabaş səpənlər kimi.
Səni öpmək istərəm – düz on səkkiz yaşına
Təzəcə qədəm qoyan qızı öpənlər kimi.

Uğrunda həyatımı qurban vermək istərəm,
Eşqin təntənəsiyçün can qurban edən kimi.
Səni bütün dünyaya mən göstərmək istərəm
Sevdiyim qız kimi yox – sevdiyim Vətən kimi.

1964

BƏNDƏM

Könlün intəhasız arzuları var,
Xəzan çağında da bir maya bəndəm.
Səmada ulduza, qövsi-qüzehə,
Yerdə lalələrdən bir paya bəndəm.

Ömür yollar keçən karvana bənzər,
Ona yük olmasın dövlət, simü-zər.
Ayı keşməkeşli ilə bərabər,
Günü əsr boyda bir aya bəndəm.